Vətən müharibəsində igid oğullarımızın qanı və canı bahasına tarixi ədalət qələbə çalıb və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. 44 günlük müharibədə Azərbaycan bütün dünyaya hərbi gücünü göstərdi, xalqımızın iradəsini nümayiş etdirdi, qələbəyə və şərəfə qadir bir xalq kimi Zəfər bayramını yaşadıq. 30 ilə yaxın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini həll etməklə məşğul olan beynəlxalq təşkilatların edə bilmədiyini Qalib Ali Baş Komandan və müzəffər Azərbaycan ordusu 44 günə haqsızlığa, işğala, hərbi təcavüzə son qoydu. Yaddan çıxarmaq olmaz ki, heç vaxt haqqın qələbəsinə şərin gücü çatmır!



# İgid qardaşlar: biri şəhid, qazi

44 gündə Azərbaycan uğurlu strateji hücum əməliyyatı aparmağı bacarıb. Əməliyyata tanklar, digər zirehli maşınlar, müxtəlif artilleriya qurğuları, raket sistemləri və piyada birləşmələrinin istifadəsi də daxil, quru qüvvələri geniş şəkildə cəlb edilib. Həmçinin pilotsuz təyyarələr fəal şəkildə istifadə olunub. Bütün bunlara baxmayaraq, 2-ci Qarabağ müharibəsini Azərbaycan əsgəri udub! Həmin igid əsgərlərdən biri də Fəqan Zalovdur. Müharibədə qəhrəmanlıq və şücaət göstərən Fəqanın ömür yolu yarıda kəsilsə də Vətən uğrunda şəhid olanlar əbədilik, ali məqamda dayanmaq şərəfini qazanırlar.

1993-cü ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Fəqanın ailəsi Füzuli rayonundan didərgin düşüb, məcburi köçkün kimi Sabirabad rayonuna pənah gətirib. Burada məcburi köçkünlər üçün salınan çadır düşərgəsində yaşayıb, yurd həsrəti ilə gecələri səhərə kimi necə deyərlər, dağı arana, aranı da haralara qədər vərəvurd edib. Fəqan həmin çadır düşərgəsində anadan olub. Ailəsinin üzləşdiyi məcburi köçkün həyatı onun qəlbində düşmənə sonsuz nifrət yaradıb, ağır həyat şərtləri onu güclü iradəyə, ciddi xarakterə malik insan kimi yetişdirib.

Orta məktəbdə oxuyanda Fəqan qəti qərara gəlib ki, mütləq hərbçi olacaq, torpaqlarımızın azad edilməsi üçün var qüvvəsini sərf edəcək. Ata-baba yurdunun həsrətini çəkir, doğma torpaqlara qayıdacaqlarına inanırdı. Bir ailədən iki qardaş həqiqi hərbi xidmətə çağırılıb. Böyük qardaşı xüsusi təyinatlı qüvvələrin tərkibində xidmət edirdi. Fəqanın onun davamçısı olmaq istəyi həyata keçdi. Hərbi xidmətini uğurla başa vurub, müddətdən artıq dəniz piyadalarının xüsusi təyinatlı bölüyündə qulluq edib. Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb, cəsarəti və qoçaqlığı ilə seçilib, hərbi tapşırıqların öhdəsindən layiqincə gəlib. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Xocavənd uğrunda gedən döyüşlərdə igidlik göstərib, düşmənin canlı qüvvəsini məhv edib. Müharibənin 44-cü günündə döyüşlərin bitməsinə dörd saat qalmış Fəqan qəhrəmancasına həlak olub.

Vətən Müharibəsi Qəhrəmanı Fəqan Zalovun şəhid olmasının ildönümündə onun əziz xatirəsi anılıb, şəhidin məzarı ziyarət olunub, ruhuna dualar oxunub. Anım mərasimində şəhidin ailəsi ilə bərabər rayon icra hakimiyyətinin əməkdaşları, şəhidin döyüşçü yoldaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Məktəblilər qəhrəmanlara, Vətənə həsr edilən şeirlər səsləndiriblər. Şəhidin anası bildirib ki, Vətənin keşiyində dayanan iki övlad böyütdüyü üçün qürur duyur. Həm şəhid anası, həm də qazi anası olduğu üçün həm kədərlənir, həm də təskinlik tapır ki, övladları valideynlərinə başucalığı gətiriblər.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Vətənimizin ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlığına görə hərbi dəniz donanmasının xüsusi təyinatlısı Fəqan Zalov ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Bir ailənin iki övladı torpaqlarımızın işğalçılardan azad edilməsi uğrunda əsl fədakarlıq və qəhrəmanlıq göstəriblər. Şəhidin ən böyük arzusu həyata keçib, qanı tökülən torpaqlarda indi yeni bir həyat başlayıb. Şəhidin adı əbədiləşdiriləcək, onun döyüş yolu gənc nəsil üçün örnək olacaq.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika.- 2021.- 13 noyabr.- S.8.